Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Heydər Əliyev bəşər tarixinə bənzəri olmayan Qurtuluş dahisi olaraq daxil olub

*(Əvvəli ötən sayımızda)*

Və beləliklə Heydər Əliyev totalitar kommunist rejiminin mövcud olduğu bir şəraitdə sovet dövlətinin başçısı tərəfindən onun fəaliyyətinə, siyasi qabiliyyətinə və s. qeyd etdiyimiz xidmətlərinə, nüfuzuna, bacarığına, fərdi xüsusiyyətlərinə görə hakimiyyətə gətirilmişdir. Yeni onun ilk dəfə hakimiyyətə gəlişi, dövlət rəhbərliyi tərəfindən həyata keçirilmişdir. Qurtuluş dahisi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gətirilməsi, dəvət edilməsi, gəlməsi isə tamam fərqli şəraitdə baş vermişdir.

Onun ikinci dəfə hakimiyyətə dəvət edilməsi gəlməsi prosesi artıq sovet dövlətinin dağılmağa başladığı illərdə müstəqil dövlətlərin yaranması dövründə Azərbaycanın müstəqilliyini itirməsi, vətəndaş müharibəsinin başverdiyi dövürdə, xaos, anarxiya yarandığı dövürdə hakimiyyətdə AXC-Müsavat İkihakimiyyətliliyinin çürük, xalqa zidd siyasətlərinin nəticəsi olaraq ərazi bütövlüyümüzün, suverenliyimizin məhv olunması dövründə xalqın təkidli tələbi ilə, eyni zamanda hakimiyyətdə olan əslində isə ölkədə hakimiyyətsizlik, xaos yaratmış qüvvələrin xahişi ilə baş vermişdir.

Müdrik rəhbərimizin hakimiyyətə gətirilməsinin, gəlməsinin digər ölkələrin Qurtuluş dahilərinin, dövlət xadimlərinin öz ölkələrində hakimiyyətə gəlişlərindən fərqli cəhətlərini təhlil edərkən eyni zamanda qeyd etmək lazımdır ki, Heydər Əliyev qeyd etdiyim cəhətlərinə görə dövlət rəhbərliyi tərəfindən, "Heydər-xalq", "xalq-Heydər" fəlsəfəsinin vəhdətinin, birliyinin nəticəsi olaraq xalqımın, dövlətimin ən çətin anlarında xalq tərəfindən hakimiyyətə təkidlə dəvət edilmişdir.

Müstəqil demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu sahəsində də Heydər Əliyevin digər dövlətlərin, xalqların tarixində mövcud olmuş qurtuluş dahilərindən fərqli cəhətləri, üstünlükləri vardır. Belə ki, Uluy Öndər Heydər Əliyev hələ totalitar kommunist rejimi şəraitində sovet dövlətinin siyasətinə xidmət edən Dövlət Təhlükəsizliyi Komitəsində əks kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə təyin edildiyi ilk günlərdənyeni 1953-cü illərdən başlayaraq1987-ci illərdə bu günümüzü və gələcəyimizi görüb və hiss etdiyinə görə müasir müstəqil dövlətimizin iqtisadi-siyasi əsaslarını qurmaq, kadrların hazırlanması, milli-mənəvi dəyərlərimizi, dilimizi, dinimizi qorumaq, demokratik fikirli ziyalılarımızı, şair və yazıçılarımızı qoruyub müdafiə etmək, hərbi quruculuğu həyata keçirmək, diaspora lobbiçilik hərəkatının əsaslarını qoymaq, elmin, texnikanın, kənd təsərrüfatının ağır və yüngül sənaye sahələrinin bir sözlə müasir müstəqil dövlətimizin iqtisadi-sosial bazasını, iqtisadi, siyasi müstəqilliyimizin əsaslarını formalaşdırmaq məqsədilə çox çətin bir şəraitdə təxminən iyirmi il öncədən özünün uzaqgörən siyasətini çox böyük ustalıqla həyata keçirmiş və iqtisadi, siyasi müstəqilliyimizi qurub yaratmışdır.

Ancaq qeyd etdiyimiz Qurtuluş dahilərinin heç biri müstəmləkəsində, terkibində, işğalında olduqları ölkələrdə- yeni inqilablar, müharibələr yolu ilə, hərbi qüvvələrin dəstəyi ilə hakimiyyətə gəldikləri ölkələrdə Heydər Əliyev kimi öz ölkələri, xalqları üçün heç bir əsaslı tədbir görməmişlər.

Siyasi baxışları, siyasi kursları nöqteyi-nəzərdən də Heydər Əliyevin yüz illiklərə, əsrlərə hesablanmış siyasətinə obyektiv reallığı əks etdirən, sivil demokratik, dünyəvi dəyərlərə, dünya dövlətləri və xalqları arasında dostluğa, qardaşlığa, humanizmə, insanpərvərliyə, demokratik, hüquqi dövlətlərin inkişafına, dünyada sülhə, əmin-amanlığa xidmət edən, Azərbaycan xalqının, dünya azərbaycanlılarının, türk dünyasının, bütövlükdə bəşəriyyətin maraqlarına xidmət edən siyasəti, siyasi varisliyi təmin etmək, azərbaycançılıq məfkurəsini, dövlətçilik fəlsəfəsini gün-gündən təkmilləşdirmək, inkişaf etdirmək, hər bir uzaqgörən fəlsəfi fikirlərinin obyektiv reallığa çevrilməsi və s. cəhətlərinə görə də, şəxsiyyətinin əsas fərdi xüsusiyyətlərinə görə də bənzəri olanQurtuluş dahisi, dövlət xadimi, siyasi nəzəriyyəçilər yoxdur. Məsələn, Qurtuluş dahisi Heydər Əliyevin siyasəti 2003-cü ildən onun siyasi varisi xilaskar, tarixi şəxsiyyət, XXI əsrin ən görkəmli dünyəvi siyasi xadimi, dünyanın hərbi, siyasi, diplomatiya, ideoloji müharibələr tarixinə 44 günlük Vətən müharibəsində tarixdə görünməmiş yeniliklər bəxş etmiş, xalqımızın Milli Qəhrəmanı, Vətən Müharibəsi Qəhrəmanı, XXI əsrin ən böyük dünyəvi, yenilməz sərkərdəsi, prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək onun Azərbaycanın gələcəkdə lider dövlətə çevriləcəyi, dünyanın nəzər diqqətini cəlb edən iqtisadi, siyasi cəhətdən qüdrətlidövlətə çevriləcəyi hərbi üstünlüyə nail olacağı, torpaqlarımızın erməni işğalından azad ediləcəyi və ərazi bütövlüyümüzün təmin ediləcəyi, qaçqın və məcburi köçkünlərin öz doğma yurduna qayıdacağı haqqında Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olması və s. barəsində dediyi siyasi fikirləri yerinə yetirilmişdir. Və bu gün də onun siyasətinin nəticəsi olaraq ölkəmiz dünya dövlətləri sırasında öz layiq olduğu yerdə ən yüksək zirvədə durur və irəliyə doğru inamla addımlayır.



Ancaq götürək elə Fransa Respublikasının Qurtuluş dahisi Şarl De Qolun siyasi xəttini. Onun siyasəti hakimiyyətdən getdikdən sonra və indinin özündə davam etdirilirmi?! Xeyr. Faktlara müraciət edək. Şarl De Qol Fransız xalqının müqavimət hərəkatına ikinci dünya müharibəsi illərində rəhbərlik edərkən Əhmədiyyə Cəbrayılov adlı azərbaycanlı partizan döyüşçü ilə dostluq edir, onun qəhrəmanlığını yüksək qiymətləndirir. Fransanın müstəqilliyinə, birliyinə nail olduqdan sonra Fransa Respublikasının prezidenti olur və Əhmədiyyə Cəbrayılova Fransanın Milli Qəhrəmanı adı verib.

1966-cı ildə Sovet İttifaqına səfərə gələrkən Əhmədiyyə Cəbrayılovla görüşmək üçün Brejnevə müraciət edir və həmin ildə onunla Moskvada görüşüb. SSRİ-yə, azərbaycanlılara həmişə hörmətlə yanaşıb.

Ancaq onun hakimiyyətdən getdiyi illərdən sonra Fransanın Azərbaycana və onun xalqına qarşı mövqeyi kəskin şəkildə dəyişmişdir. Erməni lobbilərinin təsiri altında olan Fransa Respublikasının dövlət başçıları Azərbaycana qarşı kəskin mövqe nümayiş etdirirlər. Ancaq Qurtuluş dahisi Heydər Əliyevin siyasəti dövrün, zamanın tələblərinə uyğun olaraq uğurla dövlət başçımız tərəfindən irəliyə doğru gedir, obyektiv reallığı əks etdirir.

XIX və XX Əsrlərdə sosializmin, kommunizmin ideologiyasının baniləri olan Karl Marksın, Fridrix Engelsin, Vladimir Leninin siyasi baxışları utopiyadan, obyektiv reallıqdan uzaq olduğuna görə kommunist ideologiyası əsasında fəaliyyət göstərmiş sovet dövlətinin və bu dövlətin ikinci dünya müharibəsindən sonra zor gücünə qurduğu dünya sosializm sisteminin dağılmasından sonra bir siyasi baxış olaraq dünyanın siyasi sistemindən getməyə məcbur olmuşdur. Lakin müdrik rəhbərimiz Heydər Əliyevin siyasəti, siyasi baxışları bir-birləri ilə ziddiyyət təşkil edən totalitar kommunist rejimi şəraitində, yeni Marksizm-Leninizm ideologiyası ilə idarə edilən sovet dövlətində və sovet dövlətinin dağılmasından sonra da, yeni totalitar kommunist rejiminin ziddinə olan, Marksizm- Leninizm ideologiyasını rədd edən müasir müstəqil demokratik hüquqi dövlətdə də öz uğurlu nəticələrini verməkdir. Və bu siyasi kurs bu gün dünyəvi xarakter olmaqla uğurla davam etdirilir.

Mən Heydər Əliyevşünaslıq elmi ilə dərindən məşğul olduğuma görə onun siyasətini, şəxsiyyətinin əsas fərdi xüsusiyyətlərini dərindən bildiyimə görə qeyd etdiyim əsaslı faktlara əsasən qeyd etmək istəyirəm ki, Heydər Əliyev nəinki Azərbaycan xalqının, dünya azərbaycanlılarının, türk dünyasının tarixinə bənzərsiz dünyəvi siyasi xadim, Qurtuluş dahisi, əvəz olunmaz tarixi şəxsiyyət olaraq, müqaisə edilməz şəxsiyyət olaraq daxil olub, eyni zamanda bütövlükdə bəşəriyyətin tarixinə bənzərsiz dünyəvi siyasi xadim, Qurtuluş dahisi olaraq daxil olmuşdur.

Heydər Əliyevi digər ölkələrin Qurtuluş dahilərindən fərqləndirən əsas cəhətləri faktların dili ilə qeyd etdik.

Ona görə də tarixi qayıdışın, Qurtuluş gününün əhəmiyyəti bu gündən və gələcək günlərdən də baxanda daha aydın, daha da günəşli, ay kimi işıqlı görünür və görünəcək. Min illər keçsə də bu tarixi hadisə heç bir zaman unudulmayacaq, parlaq, işıqlı nurlu görünəcək Qurtuluş günündəki dərin məna. Qurtuluş günü Azərbaycan tarixinin müasir dövrünün-milli dövlətçilik, müstəqil, demokratik, sivil qanunlara söykənən Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanmasına, xalqımızın sosial-iqtisadi tərəqqisinə, mədəni inkişafına, Azərbaycan müstəqil dövlət olaraq dünyada tanınmasına və layiqli yer tutmasına gətirib çıxaran tariximizin ən parlaq silinməz iz qoyan səhifəsidir. Qurtuluş gününün tariximizə daxil olması nəinki xalqımızın həyatında, ümumiyyətlə bütövlükdə dünya xalqlarının və dövlətlərinin həyatında yeni dövrün əsaslı dönüşünün başlanğıcını qoydu.

Tarixi qayıdış günündən başlayaraq müdrik dövlət xadimi, müstəqil dövlətimizin təməl daşlarını hələ çətin totalitar kommunist rejimi şəraitində qoyan Heydər Əliyevin gərgin əməyi və zəhməti sayəsində ölkəmizdə tez bir zamanda AXC-Müsavat ikihakimiyyətliyinin günahı ucbatından baş alıb gedən özbaşınalıqların, xaosun aradan götürülməsi, ictimai-siyasi sabitliyin bərpa olunması, aparılan sosial-iqtisadi, demokratik islahatlar və sülhsevər xarici siyasət dünyanın Azərbaycana münasibətini köklü şəkildə dəyişdi. Azərbaycan dövlətinin müstəqilliyi möhkəmləndirildi. Dünya artıq Azərbaycanla hesablaşmağa başladı. Kimin kim olduğu artıq məlum oldu. Azərbaycanın ərazi bütövlüyü, mənfur düşmən Ermənistan istisna olmaqla dünya dövlətləri və ictimai təşkilatları tanıdı. Dünya Azərbaycan dövlətinin haqq səsinə səs verdi. Azərbaycanla dünya dövlətləri arasında dostluq və əməkdaşlıq münasibətləri inkişaf etməyə başladı. Ölkəmiz müstəqil dövlət olaraq ərazi bütövlüyünün, suverenliyinin möhkəmlənməsinə, onun müstəqil dövlət olaraq sosial-iqtisadi, siyasi inkişafına və dünyada mövqeyinin artmasına, çəkisinin yüksəlməsinə, müdafiə qüdrətinin möhkəmlənməsinə, bu günümüzə, gələcəyimizə xidmət edən Heydər Əliyev neft strategiyasının uğurunu təsdiq edən neft müqaviləsinin - "Əsrin müqaviləsi"nin imzalanması tarixi qayıdış gününün - Qurtuluş gününün təntənəsidir.

Qurtuluş günü bu günümüzün, gələcəyimizin tərəqqisinin, təməl daşının qoyulduğu gündür. Həmin gün Azərbaycan xalqının müdrik rəhbəri öz sevimli xalqının səsinə səs verdi. Uzaqgörən siyasəti ilə "Mən qalan ömrümü də xalqıma bağışlayıram" deyərək, yenidən xalqın xilaskarına, qurtuluş dahisinə çevrilərək rəhbərliyə qayıtdı. Azərbaycan tarixinin ən parlaq səhifəsi olan Qurtuluş günü sözün əsl mənasında xalqın, dövlətin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin taleyini müəyyən etdi.

Əgər xalqımız öz xilaskarına müraciət etməsəydi və Heydər Əliyev hakimiyyətə gəlməsəydi, indi nə Azərbaycan adlı dövlət, nə də xalq var idi. Xalq pərən-pərən olmuşdu, torpaqlarımız tamamilə işğal edilmişdi. Xırda xanlıqlara, cırtdan dövlətlərə, yeni Sürət Hüseynovların təsir dairəsinə, xarici düşmən dövlətlərin müstəmləkə zonalarına bölünmüşdü.

AXC-Müsavat iqtidarı ölkəni suda batan gəmi səviyyəsinə çatdırmışdı. Bu səriştəsiz "demokratların" xəyanəti, məqsədi idi ki, yenicə müstəqillik əldə etmiş "gəmini" suda batırmaq üçün zorakı yolla sükanı ələ keçirsin.

*(Ardı var)*

**Dəmir QURBANLI,**
**Heydər Əliyev siyasi kursunun təbliğatçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Azad Azərbaycan" qəzetinin şöbə müdiri, "Qızıl Qələm", "Azərbaycan Bayrağı", "Xalqın nüfuzlu ziyalısı" media mükafatları laureatı, ehtiyatda olan zabit**